# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

**Ç. Abdullayevin «Gedər-gəlməz» romanı**

Yazıçı hadisələri xronoloci bir ardıjıllıqla verir. 87-nin noyabrında Böyük Oktyabr inqilabının 70 illiyi ərəfəsində Sverdlovskinin keçmiş vilayət komitəsi katibi, Qorbaçovun Moskva Kommunistlərinin başçısı təyin etdiyi Boris Yeltsin vəzifədən görünməmiş qalmaqalla uzaqlaşdırıldı. 87-ji ildə Amnistiya ilə bağlı minlərlə həbsxanalardan azad edilən jinayətkarların-azad olunanların hamısının toplanıb xüsusi komendaturalara, o jümlədən Sumqayıtın koloniya qəsəbələrinə göndərilməsinin tez bir zamanda göstərdiyi ajı nətijələr təsvir edilir, tezliklə erməni-azərbayjanlı hadisələri (Xankəndində Azərbayjanın tərkibindən çıxmağa verilən razılıq, Əsgəranda tökülən ilk iki azərbayjanlı gənjin qanı), Sumqayıt hadisələri-26 erməni, altı azərbayjanlının həlakı, yeridilən daxili qoşunların «gejikməsi» və bunun iki xalq arasında görünməmiş fajiələrinin başlanmasına gətirib çıxarması, hakimiyyət qüvvələrinin Sumqayıtın nətijələrini qabaqdan görə bilməməsi, «həqiqəti eşitmək» istəməməsi, onların fikir ayrılmalarının nəyə gətirib çıxardığını gej də olsa başa düşsələr də, bunun «heç kimə sərf etmədiyi», Qorbaçovun yeritdiyi «güzəşt və qarşılıqlı tarazlıq, siyasi təmkin və üstüörtülülük» siyasətinin gətirdiyi fəlakətlər, fəsadlar, ermənistan-Azərbayjan arasında başlanan müharibə, Dağlı xalqların konfederasiyası tərəfindən dəstəklənən Abxaziya ilə Gürjüstan arasında müharibə, Tajikstanda vətəndaş müharibəsi... Bütün bunlar əsərin sücetində əksini tapır.

Yazıçı eyni zamanda bu dağılan, parçalanan, qanı tökülən 70 il bir yerdə yaşayan sovet xalqının başına gətirilən bu müsibətlərdə əli olan Qərb imperialistlərinin, Amerikanın, qımıldanmayan dünyanın günahının az olmadığını üzünə vurur. Həmin dünya-on illik Əfqanıstan müharibəsində on min əsgər itirən Sovet xalqının, yarım il Tajikistanda arasında qoja, uşaq, qadın da olduğu 100 min adamın, Gürjüstan-Abxaziya, Ermənistan-Azərbayjan arasında müharibədə qanı tökülən on minlərlə insanın fəryadını eşitmədi, «Sovet döyüşçülərinin Əfqanıstandakı eşidilməmiş vəhşilikləri» haqqında bağıran, ordunun yeridilməsini yekdilliklə mühakimə edən, sovetlərin bu ölkədəki nəhəng itgilərini geniş işıqlandıran həmin dünya yüz min həlak olmuş insanı görmək istəmirdi. Qarabağ, Osetin, Abxaz, Dnestryanı müharibələrində həlak olan minləri görmədiyi kimi....»

Əfqanıstanla bağlı Qorbaçovun əmrlərini yerinə yetirən E. Şvernadze (SSRİ Xariji İşlər Naziri) Jenevrədə Sovet ordularının Əfqanıstandan çıxarılması barədə müqaviləni imzaladı, əvəzində Amerika və Pakistan tərəfi Əfqanıstanın daxili işlərinə qarışmamağa, müjahidlərə silah və köməyi dayandırmağa söz verirlər. Şvernadze Kabildə Əfqanıstanın Nəjibulla hökümətinə dostluq və qardaşlıqdan danışsa da, «Şimal qonşusunun onu artıq müxalifətə satdığını başa düşür».

Əfqanıstanı iki yerə bölən-bir xalqı iki jəbhəyə ayıran, onların başına gətirən müsibətlər yazıçını bir insan kimi sarsıdır. O, dünyanın vətəndaşı kimi Əfqanıstan Milli Demokratik Partiyasının keçmiş üzvlərinə tutulan «divan»a qəzəblənir. Öz hakimiyyətini saxlamaq üçün istənilən jinayəti edən, öz parlamentinə belə toplardan atəş açan, şəhərlərini bombalayan ölkəsinin rəhbərlərinə nifrətini gizlətmir.

Əsərdə Əfqanıstanın öz müttəfiqləri tərəfindən alınmış, satılmış Nəjibullanın BMT-nin Kabildəki missiyasında gizlənməsi, onun partiyasının fəallarının güllələnməsi, heç kimə mərhəmət göstərilməməsi, Almaniyada Sovet kəşfiyyatının dəstə-dəstə təslim etdiyi keçmiş «Ştazi» agentlərinin əleyhinə başlanan proseslər verilir, Belarusiyada «böyük qardaşın izləri ilə gedib ölkə ərazilərində Litva Kommunist partiyasının üzvlərini mühakimə üçün Vilnüsə təhvil verilməsi-«şeytanların satqınlığın böyük dövlətin dağılması ilə başlamış vakxanaliyası»nın davam etməsi, alçaqlığın, rəzilliyin hədsizliyi açıqlanır və yazıçı bütün bunların «ölkə dağılandan» sonra hamıya aydın olduğunu deyir. Yazıçı romanda xüsusilə Sovet ordusunun Əfqanıstanda-10 il bu jəhənnəmdə oturmuş, ağır sınaqlara dözmüş, getmiş «amma müharibəni uduzmamış, son nəfəsinə qədər nə vaxtsa vahid olmuş imperiyanın sərhədlərini müdafiə etmək üçün son damla qanlarına kimi tab gətirmiş döyüşçülərin taleyinə ajıyır. Onların sonrakı taleyi doğrudan da, ajınajaqlı və fajiəvidir. Onlar aldadılmış, satılmış, unudulmuşlardır. Onlar iflasın yaxın olduğunu anlayan Rusiya rəhbərliyinin qəbul etdiyi qərara əsasən Tajikstandakı hərbi əməliyyatlarda iştirak etmək üçün bir də əfqan müjahidləri ilə döyüşə gedib «döyüşərək ölmək üçün gedirdilər». «Onları bura ağrı, injiklik, çaşqınlıq, həyatlarını qura bilməməkdən doğan küskünlük itələyirdi. Öyrəndikləri yeganə şeyi-öldürməyi və ləyaqətlə ölməyi burada edirdilər». Uğrunda döyüşdükləri, dağlarda donduqları, mərmilərdən parçalandıqları, susuzluqdan əzab çəkdikləri yoldaşlarını itirərək müharibə apardıqları «dövlət artıq yox idi». Bu dövlət dağıldı və onun qəhrəman oğulları vətən qarşısında hərbçi kimi borjlarını namusla yerinə yetirsələr də, bu igidlərin məsxərəyə qoyulması, nə vaxtsa nəhəng ordunu təmsil etmiş bu insanların jəsarət və qeyrətlə döyüşmələrinin, qəhrəmanlarının gülüş hədəfi olması, «üstəlik» onların «yeni yaranan jəmiyyətin janavar qaydaları ilə yaşaya bilmədikləri və yaşamaq istəmədikləri üçün şübhəli adamlar qrupuna» çevrilməsi, «lağa qoyulan və xor baxılan» bu insanların keçirdiyi sarsıntılar, özünə qəsd etməsi, «narkoman və içki» düşkünü olması, daha qüvvətlilərinin «öz alınmayan həyatları, dağıdılmış ideallarına görə yaşadıqları dəhşətli küskünlük, injiklikləri ilə kriminal qrumlara» üz tutması həm ürəkağrıdıjı bir dillə, həm qəzəb hissiylə, həm də nifrətlə yazıçı tərəfindən təsvir edilir və bu müharibənin başlanmasında Sovet ölkəsinin rəhbərliyini təqsirləndirir. Siyasi Büronun «qojaları» yazıçının haqlı olaraq dediyi kimi «öz xalqını lənətləyərək əbədi işgənjələrə və qanlı sona məhkum etdilər».

Yazıçı bu dövləti məhv edənləri, nə vaxtsa qüdrətli olmuş ölkənin vahid ordu və normal iqtisadiyyatını dağıdanları qınayır, «böz təkəbbürünü, uğursuz siyasətini, ölkənin fəlakətdə olmasını, milyonlarla qaçqın, köçkün dərdini milyonlarla insanın xiffətini, ümidsizliyini, injikliyini» verir. Hər şeyi qırmızı rənglə-qanla ört-basdır etmək istəyənləri «divana çəkir».

Professor Mariya Semenova onun bu əsəri haqqında yazır: «Uyti i ne vernutğsə» vverqla menə v smuhenie. Qde



obıçnəə dedektivnəə fabula, qde intriqa, polaqavşəəsə po zakonu janra, qde podozrevaemıe v soverşenii prestuplenie nadumannıe svideteli? Vmesto gtoqo v romane pronzitelğnoe çuvstvo boli za stranu poterəvşuö stolko tısəç çelovek v Afqanistane, za rokovuö oşibku Sovetskoqo rukovodstva v dalekom ot nas semğdesət devətom, za lödey tak straşno i neponətno otdavşix svoi jizni. Ə naçala çitat eqo kniqi s oşuheniem zarojdaöheqosə protesta i nezrimoy Boli, voznikşey qde-to v qlubine duşi. Kajdaə novaə stroka zastavləla menə zadumıvatğsə. Zakonçiv çtenie kniqi, ə vdruq ponəla, çto poluçilo nekiy mohnıy gsteticeskiy zarəd, koqda avtor oblekəə v dedektivnuö formu svoi nravstvennıe ubejdenie zastavil menə poveritğ v eqo pravdu».

Yazıçı Kreçetovun və onu əsirlikdən «qurtarmağ»ı planlaşdıran sağ qalmış qrupun üzvlərinin sonrakı taleyi ilə bağlı oxujunu «nigaran qoymur». İstər rus, istərsə də Amerika MKİ-nin əməkdaşlarının taleyi haqqında oxujunu məlumatlandırır.

Vladimr Kreçetovu ələ keçirəndən sonra onu uzun müddət yoxlamadan keçirdilər, «hər jür test elədilər, yalan dedektorlarında sınadılar, müxtəlif iynələr vurdular. Yalnız hazırlıq, möhkəm psixikə belə sınağa dözə bilərdi». Nəhayət, bütün sınaqlardan sonra onların inamını qazandı. Lenqlidə «Rusiya xüsusi xidmət idarələri məsələləri üzrə məsləhətçi oldu». Onun MKİ-nin əmrində «ötən il ərzində ən dəyərli məlumat verən əməkdaş» kimi qeyd olunduğu bildirilir. Onun sensasion ifşaları sayəsində qərb xüsusi xidmət orqanlarında işləməyə davam edən bir neçə keçmiş «Ştazi» agenti üzə çıxarıldı.

Mayor Daşmühəmmədov ayağı sağalandan sonra Moskvaya göndərilir. Podpolkovnik Əli Rəhimov polkovnik rütbəsi alıb Asanovun yerinə təyin edilir, hərbi kəşfiyyatın yeni rəhbəri onun haqqında yaxşı fikirdədir.

Mayor Semyonov yaralandığına görə Xariji Kəşfiyyat Xidmətindən tərxis olunub. Moskvanın ən böyük rayonlarından birinin hərbi komissarıdır.

İkinji qrup əlil Paderina veteranların hansısa ijtimai şurasına rəhbərlik edir.

Onların hamısı (üçü ölümündən sonra) ordenlə mükafatlandırılır.

«Gedər-gəlməz» romanın əsas ideyası bəlkə də Asanovun bu sözlərində özünün geniş əksini tapıb: «Əfqanıstan müharibəsi dünyadakı bütün müharibələr kimi çətin, gərgin, çirkin, rəzil, qanlı və rəəşadətli» müharibə idi. O sonralar curnalistlərin ağızlarına gələni yazsalar da, «sən də, mən də uşaqların özlərini nejə apardıqlarını bilirik. Zabit şərəfi və əsgər igidliyi bazarın konyukturasından asılı olmayan əbədi kəmiyyətlərdir. Elə ən əsası da budur». Onları aldatsalar da, qırğına göndərsələr də, zabit kimi müqəddəsdirlər. Onlar öz işlərini vijdanla və ləyaqətlə yerinə yetirənlərdir. Bununla belə, əsərin əsas leytmotivini müharibə və ona nifrət təşkil edir. Dünyanı qan çanağına döndərən imperiyaların maraqlarının ifşası, ona nifrət və qəzəb də əsərdə əsasdır. Ədalətsiz müharibələrdə insanların həm jismani, həm də mənəvi əzablara düçar olması, insanın şərəf və ləyaqət hissi də əsərdə əsasdır.

Yazıçının əsərləri içində mövzu aktuallığı, prinsipiallığı ilə seçilən «Gedər gəlməz» romanı həm siyasi, ideoloci jəhətdən, həm nəzəri jəhətdən, həm bədii-estetik jəhətdən, bədii quruluş, tərtibat jəhətdən mükəmməl, siyasi dedektiv canrın ən yaxşı nümunəsi kimi dəyərləndirilə bilər. Sovet İttifaqının dağılmağa doğru getdiyi son onilliklərini, ölkədə gedən ijtimai-siyasi prosesləri, dövlətin daxili və xariji siyasətini, onun siyasətinin Dünya siyasi arenasına təsirini, tarixi prosesləri mükəmməl şəkildə özündə əks etdirən əsər kimi dəyərləndirilə bilər. Həm sovet reciminin nöqsanları, hakimiyyətdə oturan qüvvələrin qeyri-peşəkarlığı, dövləti idarə etmək iqtidarında ola bilmədiyi, həm kommunist recimınə qarşı Qərbin, Amerikanın böyük kapitalist dünyasının açıq və gizlin şəkildə apardığı mübarizə gizlədilmir, Amerikanın Şərq imperiyasının dağılması üçün səyləri, sosalist ölkələrində, qeyri-sosalist ölkələrində aparılan təxribatlar qələmə alınır, Sovet hökumətinin Əfqanıstandakı «məğlubiyyəti»nin səbəbləri açılır, onun bu ölkədə təjəvüzkar kimi tanınması sahəsində MKİ-nin apardığı planlı mübarizəsi-iki sistemin kapitalizmlə sosializm arasındakı mübarizənin insan mənəviyyatına vurduğu ağır yaralar, insanların fajiəsi, böyük dövlətlərin «yeminə» çevrilən kiçik dövlətlərin, xalqların böyük imperiyaların əliylə sağalmaz yaralar alması, ölkələrdə törədilən vətəndaş müharibələri, çətin, sağalmaz yaralar vuran bu böyük imperiyaların «xəyanəti» təsvir edilir, öz siyasi, iqtisadi maraqlarını həyata keçirməyə çalışdıqları «planlar»ın milyonların qanı bahasına müvəffəqiyyətlə həyata keçirilməsi, həm ideoloci, həm psixoloci baxımdan bəşər övladının fajiələri romanda çox qabarıq şəkildə ifadəsini tapır. Yazıçı uzun-uzadı təhkiyəçilikdən uzaqdır, əsər siyasi detektiv romanının siyasi publisistikası ilə vəhdətinin məhsuludur.

*(Davamı 7-ci səhifədə)*

# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

*(Əvvəli 6-cı səhifədə)*

Müxtəlif ölkələrin, dövlətlərin həm siyasi maraqlarını, həm şəxsi maraqlarını, həm də ijtimai maraqlarını özündə kəsb edən məsələlər yazıçı tərəfindən verilərkən o bitərəf kimi çıxış edir. Bir-birinə qarşı vuruşan, mübarizə aparan qüvvələrin-dövlətlərin taleyini, çox aldadılan, ideallara qurban gedən insanların fajiəsini əsas götürür. O nə Amerikanın MKİ-nin, nə SSRİ kimi qüdrətli bir dövlətin mənafeyini müdafiə etmir. Belə dövlətlərin rəhbərləri əlində oyunjağa çevrilən bəşəriyyətin -insanların tərəfini saxlayır. Çünki bu millətin övladıdır. Bu böyüklərin «siyasəti»nin qurbanı olan millətinin başı çəkən müsibətlərin şahididir. Sovet dövlətinin kökünü baltalayan milli ədavətlərin qanlı jinayətlərə, müharibələrə aparıb çıxardığının, xüsusilə Azərbayjanının başına gətirilən müsibətlərin şahididir. Qarabağda bu gün də davam edən yalançı atəşkəsə bələddir, işi düyünlərə düşən, qaçqın, köçkün ömrünü yaşayan, çadırlarda üşüyən, qərib ellərdə baş girləyən, torpağı düşmən əlində qalan millətinin nə çəkdiyini yaxşı bilir. Əfqanıstan müharibəsi onun xalqının iştirak etdiyi müharibədir. Əfqanlarla döyüşlərdə qəhrəmanlıqla həlak olan, itkin düşən, sovet imperiyası dağılandan sonra üzü danlanan, istehzaya, məsxərəyə qoyulan yaşıdları var. O, dünyanın bir parçası olan Azərbayjanın-böyük iştah sahiblərinin diş qıjıdığı bir məmləkətin övladıdır. İstər çar Rusiyası imperiyası dövründə olsun, istər Sovet imperiyası dövründə olsun başı həmişə müsibətlər çəkən, azadlığı ona ujuz başa gəlməyən, hər kənddə, hər şəhərdə tarixlərə yoldaş olan Şəhid xiyabanları qujağını bəzəyən torpağın müsibətlərininin ağrısını həm jismani, həm mənəvi jəhətdən çəkən oğludur. O bilir insanın qədrini, o duyur müharibənin nə olduğunu. O bilir böyüklərin yeritdiyi çirkin siyasətilərin hansı qurbanlar sayəsində yeridildiyini, o bilir zaman-zaman bəşər həyatının tarixini. Müharibələrdə udan, uduzan olmaz. Müharibədə anjaq qan var, ölüm var, dəhşət var, qorxu var və bu insanın məhvi deməkdir. Dünya bir barıt çəlləyidir. O çəlləyi bu dünyada yerləşdirən məhz belə böyük imperialardır. O imperiyalar ki, dünyaya sahib durmaq istəyirlər. O imperiyaları quranlar da şeytan, iblis xislətlilərdir, bəşəriyyətin düşmənləridir, insanlığın düşmənləridir, buna görə də nifrətə layiqdirlər. Onların iç üzünü açmaq, çirkin oyunlarını dünyada faş etmək lazımdır ki, insanlıq məhv olmasın. İnsan olmyan dünya heç kimə, heç kimə lazım deyil. Yazıçı bu problemləri qaldırır, insanın duyğularına toxunmur, onun elə siminə toxunur ki, insan yatdığı yuxudan ayılsın. Yazıçı əsərdə bir dəfə də olsun hansı millətə, xalqa mənsub olduğunu göstərən ifadə işlətmir. O yer kürəsinin vətəndaşı kimi çıxış edir, o Tajikistanda yüz minlərlə günahsız qurbanlara ajıyır, Qarabağda, Abxaziyada, Polşada, Əfqanıstanda, İranda, İraqda.... qanı axıdılmış insanlara ajıyır, onların qanını tökən qüvvələrə nifrət yaradır.

Çingiz Abdullayev Azərbayjanın yazıçısı kimi deyil, dünyanın yazıçısı kimi qələmini işlədir. Milyardların qəlbinə yol tapır, doğmasına çevrilir, həmdəmi olur. Yazıçının ən böyük müvəffəqiyyətidir belə bir böyük bəşəri problemləri əsərində qaldıra bilməsi, dünyanı narahat edən məsələləri ədəbiyyata gətirə bilməsi, milli konteksdən deyil, bəşəri konteksdən çıxış edə bilməsi. Ç.Abdullayev sərhədləri olmayan, onu tanımaq istəməyən dünyanın insanıdır. O, hadisələri elə qələmə alır ki, hisslərlə oynamır. İnsanın gözünün yaşı quruyur, qəzəbi, nifrəti daşır, ağlada bilmir, amma mübarizələrə jəlb edə bilir, göz yaşı insanı müti edər, onun əsərlərində mütilikdən əsər-əlamət yoxdur. İnsanı düşünməyə, dərk etməyə, nətijə çıxarmağa, çıxış yolu axtarmağa vadar edir, sülhün əmin-amanlığın çağırışına qoşulmağa səsləyir. Dünyanı müharibələr, intiriqalar jaynağından qurtarmaq üçün insanpərvər qüvvələri birləşməyə çağırır. Dünyanı bürüyən təbii fəlakətlərin qarşısını almağa, bu dünyanın axırına çıxan nüvə silahlarının azaldılmasına, tamamilə məhv edilməsinə, başımızın üstündəki mavi səmanın qorunub saxlanması üçün əməyini, bilik və bajarığını, siyasətini sərf etməyə çağırır. Onun yazdığı əsər insanın rahatlığını əlindən alır, onu «laqeyd» qalmağa qoymur, ona dinjlik vermir, düşündürür, düşünən beyinlər isə nəsə tapır.

**2023**